**İstənilən sahədə saxta diplomlu şəxslərin fəaliyyət göstərməsi həmin sahənin inkişafına deyil, tənəzzülə doğru getməsinə rəvac verir. Çox təəssüf ki, saxta diplomlu şəxslər respublikanın orta təhsil sisteminə də sirayət edə biliblər. Onlar arasında nəinki sıravi müəllimlər, hətta məktəb direktorları, dərs hissə müdirləri də var.**

# Məktəblərimizdə saxta diplomlu müəllimlər, hətta direktorlar da var

## *Kamran Əsədov: "Bu ali təhsil müəssisəsinin adı ilə alınıb təhsil sistemində işlədilən diplomlar..."*




*"Belə bir "xroniki xəstəliyi" birdən-birə aradan qaldırmaq mümkünsüz dərəcədə çətin bir şeydir"*

Hələ 2014-cü ildə Təhsil Nazirliyindən bildirilirdi ki, nazirlik 2 minə qədər saxta diplomlu müəllimi adbaad tanıyır. Qurum qeyd edirdi ki, nazirlikdə 2 minə qədər saxta diplomlu müəllimin işləməsi barədə dəqiq məlumat var, amma onları bir anın içində işdən uzaqlaşdırmaq mümkünsüzdür.

Son zamanlar yenidən təhsil sənədi nümunəvi olmayan (saxta diplom), mövcud qaydaların tələblərinə uyğun olmayaraq işə qəbul edilmiş şəxslərlə bağlı məsələ gündəmdədir. Xüsusilə də orta təhsil sistemində olanlara münasibət diqqəti cəlb edir.

Bu günlərdə saytlarda və sosial şəbəkələrdə Təhsil Nazirliyinin saxta diplomlarla işləyən müəllimlərə, məktəb direktorlarına qarşı barışmaz mövqe sərgilədiyi qeyd edilib.

Sosial şəbəkələrdə Yevlax şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Xalidə Əzizovanın diplomunun saxta olması ilə bağlı məlumat yayılıb. Bildirilir ki, Xalidə Əzizovanın Kirovabad (Gəncə) Pedaqoji İnstitutu tərəfindən verilən diplomu saxta çıxıb.

Məsələ barədə Təhsil Nazirliyindən mətbuata bildirilib ki, Təhsil naziri Ceyhun Bayramovun müvafiq əmrilə Yevlax şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Xalidə Əzizova ilə əmək müqaviləsinə 15 yanvar 2020-ci il tarixdə xitam verilib.

Tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, Müəllimlər İnstitutunun Gəncə filialı tələbələrə saxta diplomlar təşkil edir: "İlk növbədə qeyd edim ki, ən çox saxta diplom Müəllimlər İnstitutunun Gəncə filialında tələbələrə təşkil edilir. Bu ali təhsil müəssisəsinin adı ilə alınıb təhsil sistemində işlədilən diplomlar 600-dən çoxdur. Ədalət naminə demək lazımdır ki, saxta diplom məsələsi ilə bağlı müəyyən irəliləyişlər var. 5-10 il bundan qabaqkı faktlarla müqayisədə müəyyən sabitləşmə hiss olunur. Bunun səbəbləri müxtəlif şəkildə izah oluna bilər. Xatırlayırsınızsa, 2012-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (DİM) sədri Məleykə Abbaszadə məsələ ilə bağlı ciddi rəqəmlər açıqlamışdı. O, 1992-2011-ci illər ərzində 22 min 332 nəfərin TQDK-nın (DİM) "qara baza"sına düşdüyünü və həmin şəxslərin saxta diplomlarla fəaliyyət göstərdiyini bildirmişdi.

Saxta diplomların əsasən köçürmələrlə bağlı olduğunu da qeyd etmək lazımdır. Azərbaycanda keçirilən qəbul imtahanında keçid balını toplaya bilməyən gənclər xarici ölkələrin, xüsusən də Rusiya, Ukrayna, Gürcüstan və Türkiyə universitetlərinə saxta yolla qəbul edilir, sonra isə Azərbaycanın dövlət universitetlərinə və ya rayon filiallarında birbaşa 2-ci kursa qəbul olunurdular.

Xatırladım ki, Azərbaycan Beynəlxalq Universitetinin tədrisinin təşkilindəki problemlər, qanunsuz tələbə köçürmələri və digər nöqsanlara görə bağlanandan sonra həmin ali məktəbin diplomları qəbul olunmadı, məhkəmə prosesi hələ də bu günə kimi davam edir. Misir Mərdanovun nazir olduğu dövrdə bir neçə müəllim işdən azad olundu. Amma məhkəmə bunları yenidən bərpa etdi. Saxta diplom məsələsinin başlıca səbəbi cəzasızlıqdan qaynaqlanır. Hər hansı universitet rektorunun və ya nazirlikdən kiminsə mövcud səbəbə görə cəza aldığı ilə bağlı konkret rəsmi məlumat verilməyib. Məhz cəzasızlıq sindromuna görə bu kimi hallar baş verir".

O qeyd etdi ki, Sovet dövründə Pedaqoji Kadrların İxtisasartırma və Yenidən Hazırlama İnstitutu var idi, sonradan bu institutun xarakteri dəyişilərək Azərbaycan Müəllimlər İnstitutu statusu aldı. Bu azmış kimi, həmin institutun bölgələrdə 11 filialı yaradıldı, o cümlədən də Gəncədə. Bir müddətdən sonra burada böyük korrupsiya faktları aşkarlandı, bir neçə filial bağlandı və belə bir mənzərə ortaya çıxdı. 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə sərəncam imzaladı və belə deyək ki, diplom istehsal edən ən böyük müəssisə fəaliyyətini dayandırdı. "Təhsil Nazirliyində Nostrifikasiya şöbəsində diplomların tanınması rəsmi qeydiyyata alınır, nazirlik hansısa bir xarici ölkədən gələn diplom üçün həmin universitetə sorğu göndərir, dəqiqləşdirmə aparılır. İnstitutun lisenziyası yoxdursa və ya nostrifikasiyadan keçməyibsə, saxta hesab olunur. Saxta anlayış da var ki, möhür saxtadır və ya imza saxtadır. Bununla əlaqədar müəyyən qurumlar fəaliyyət göstərir və bu iş daim nəzarətdədir. Amma bir məqam da var ki, bəzi hallarda Təhsil Nazirliyində Nostrifikasiya şöbəsinin təsdiqi ilə də saxta diplomlardan əmək bazarında istifadə olunur.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra ölkənin sosial-iqtisadi sahəsində olduğu kimi, təhsil sahəsində də müəyyən boşluqlar əmələ gəldi. Təhsil qanununun qəbul olunması 15 ilə qədər ləngidi. Digər normativ-hüquqi baza yaradılması istiqamətində lazımi iş aparılmadı. Fürsətdən istifadə olunub, 70-dən artıq ali və orta təhsil müəssisəsi yaradıldı və bu müəssisələrin əksəriyyəti özəl oldu. Onların hər hansı bir bazası formalaşmadı. Ona görə də qanunvericilikdə olan müəyyən boşluqlar bu təhsil müəssisələrində saxtakarlıq elementlərinin baş verməsinə zəmin yaratdı. Özəl ali məktəblərdə islahatlara start verildi. Bir neçə universitet - Azərbaycan Beynəlxalq Universiteti, Təfəkkür Universiteti, Moskva Açıq Universiteti bağlandı. Bu sahədə rasionallaşma, optimallaşma baxımından tədbirlər həyata keçirilir. Bir sıra universitetlər bağlanır, digərləri birləşir, kolleclər universitetlərin nəzdinə verilir. Bu hərəkətlilik və dəyişikliklər müəyyən vaxtlarda boşluqlar yaradır və bundan istifadə edənlər saxta diplomlar hazırlayıb kimlərəsə verirlər. Belə bir "xroniki xəstəliyi" birdən-birə aradan qaldırmaq mümkünsüz dərəcədə çətin bir şeydir. Əvvəllər mətbuat, internet belə geniş səs-küy salmırdı. Burada mətbuatın rolu böyükdür. Korrupsiya, saxtakarlıq halları mətbuat tərəfindən qabardıldı, bu məsələ yüksək səviyyələrə qədər qaldırıldı. Mətbuatın rolu, ictimaiyyətin təpkisi olmasaydı, bu proses hələ də çiçəklənməkdə davam edəcəkdi.

Bundan başqa, hesab edirəm ki, elektron baza olmalıdır. Hər bir işəgötürən işçini qəbul etdikdən sonra rahatlıqla həmin portala daxil olub verilmiş diplomin həqiqi, yoxsa saxta olduğunu yoxlamalıdır" - deyə ekspert qeyd etdi.

***İradə SARIYEVA***